BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№4 Humanitar elmlər seriyası 2014*

**UOT 94(479.24)**

# XVIII ƏSRİN I RÜBÜNDƏ AZƏRBAYCAN TARİXİ ZADƏGAN A.İ.LOPUXİNİN QEYDLƏRİNDƏ

**Z.R.İSLAMOVA**
***Bakı Dövlət Universiteti***
***ayxan.islamli@mail.ru***

*Məqalə A.İ.Lopuxinin gündəliyi əsasında Azərbaycan tarixinin ayrı-ayrı məsələlərinin tədqiqinə həsr olunmuşdur. Gündəlik, A.İ.Lopuxin tərəfindən XVIII əsrin I rübündə tərtib edildiyindən həmin dövrün öyrənilməsində mühüm əhəmiyyət kəsb edir. Andrian İvanoviç Lopuxin (1693-1755) zadəgan I Pyotrun yaxın qohumu, eyni zamanda Rusiya ordusunun leyb-qvardiya leytenantı olmuşdur. A.P.Volınskinin 1715-1718-ci illərdə Səfəvi sarayına olan səfirliyində iştirak etmişdir. 1718-ci ildə A.P.Volınski tərəfindən Niyazabaddan Rusiya sarayına şah hədiyyələrinin quru yolla çatdırılması üçün göndərilir. Gizli təlimata əsasən o, yol gündəliyi tərtib etməli, yolda gördüklərini, birbaşa iştirakçısı olduğu hadisələri və şəxsləri göstərməli, təfərrüatı ilə təsvir etməli idi.*

**Açar sözlər:** Səfəvilər, Dərbənd, Lopuxin, missiya, kənd təsərrüfatı

XVIII əsrin ilk onilliklərində ağır böhran keçirən Səfəvilər dövləti siyasi və iqtisadi tənəzzül dövrünü yaşayır və süquta uğrayırdı. Mərkəzi hakimiyyətin zəifləməsi imperiyaya daxil olan bölgələrdə separatçılıq meyllərinin artmasına səbəb olurdu. Səfəvilərin əsas tərkib hissəsi olan Azərbaycanın bu dövrdə vəziyyəti acınacaqlı idi. XVIII əsrin I rübündə Azərbaycanda məmurların özbaşınalığı, maliyyə böhranı, vergilərin artırılması, aşağı təbəqələrin istismarı və s. müşahidə olunurdu. Hərbi əməliyyatlar meydanına çevrilməsi Azərbaycanı tamamilə çökdürür, eyni zamanda karvan yollarının dağılması nəinki ticarəti, bütün iqtisadiyyatı iflic vəziyyətə salırdı.

XVIII əsr ərzində Azərbaycanın mürəkkəb tarixinin öyrənilməsi mühüm əhəmiyyət kəsb edir. Bu zaman yerli mənbələrlə yanaşı xarici dövlətlərin nümayəndələrinin Azərbaycan haqqında verdikləri məlumatlar böyük maraq kəsb edir. Azərbaycana gələn səyyah və səfirlərin mövqeyi onların təmsil etdikləri dövlətlərin bu bölgəyə olan maraqlarından irəli gəlirdi. Onların öz hökumətlərinə göndərdikləri hesabatlar və tərtib etdikləri gündəliklər, "donos"lar Azərbaycan tarixinin öyrənilməsində xüsusi çəkiyə malikdirlər və

tarixin müəyyən qaranlıq səhifələrinin işıqlanmasında bu məlumatlar əvəzsizdir.

Andreyan İvanoviç Lopuxin (1693-1755) qədim zadəgan nəslinin nümayəndəsi olmuş, general-mayor rütbəsinədək yüksələ bilmişdi. Bir neçə dəfə dövlət əhəmiyyətli tapşırıqların yerinə yetirilməsində özünü fərasətli diplomat kimi göstərə bilmiş, I Pyotrun 1722-ci il yürüşünün iştirakçısı olmuşdu. A.Lopuxinin A.P.Volınski missiyasındakı fəaliyyəti bizim üçün mühüm əhəmiyyət kəsb edir. 1718-ci ildə Şamaxıya çatdıqda Rusiya hökmdarı üçün Səfəvi şahının hədiyyələri Şirvan hakimi Xosrov xan tərəfindən səfirliyə təqdim olunur. Bu hədiyyələr fil və bir neçə təlim görmüş cins atlardan ibarət idi. A.P.Volınski fil gəmilərlə aparmaq mümkün olmadığını bəhanə gətirərək A.İ.Lopuxini quru yolla Şevkal dağları vasitəsilə hədiyyələri Çar sarayına çatdırmağı tapşırır. Volınski tərəfindən Lopuxinə verilən gizli tapşırıqda Niyazabad limanından Rusiya sərhədlərinədək gündəliyin tərtib olunması və yolda gördüklərini bu yol dəftərinə qeyd etməsi əksini tapır.

XVIII əsrdə Səfəvilərin iqtisadi tənəzzül dövrünü nəzərə alsaq, Azərbaycan da bu iqtisadi böhran burulğanının içərisində olmalı idi. Lakin bu dövrdə Azərbaycanda olmuş əcnəbilərin məlumatına əsasən bəzi iqtisadi sahələrin nəinki durğunluğundan danışılmır, hətta geniş inkişafı göstərilir. Ticarət məqsədli və yerli əhalinin tələbatını ödəyən sahələr inkişaf edirdi. A.Lopuxinin verdiyi məlumata əsasən Niyazabadın bir ağaclığında olan Dədili Mənzilində "ipək və taxıl çox yetişdirilirdi" [2, 6]. Digər Şirvan bölgələri kimi Dədili Mənzilində əkinçilik və ipəkçilik kifayət qədər inkişaf etmişdi. Bu dövrdə ipək istehsalı Azərbaycanın demək olar ki, bütün bölgələrində, xüsusilə Şirvanda yetişdirilir və xammal kimi ixrac edilirdi. Avropa və Rusiya tacirlərinin tələbatına uyğun yetişdirilsə də, yerli təlabat da nəzərə alınırdı. Azərbaycanda ipəkdən müxtəlif parçalar tikilir və məişətdə, eləcə də geyimdə geniş tətbiq olunurdu. Parçalar nəinki adi həyatda istifadə edilir, o cümlədən natural vergilərin ödəmə vasitəsi idi. Bundan əlavə hədiyyə, xalat formasında yüksək əyan və səfirlərə verilirdi. A.Lopuxin Dərbəndi keçdikdən sonra Əli Mirzə ona "bizdə adət belədir ki, yerli hakimə, kiçik də olsa, nəsə hədiyyə, heç olmasa qumaşdan bir parça verilməlidir. Əks halda, bizi mükafatlandırmayan heç kəs buradan keçə bilməz" [2, 31]. Ərazisindən keçməyə icazə vermək üçün Lopuxin yerli hakimə "Kaşan zərbafından bir parça" (kusok izarbafu kaşanskoqo) göndərir. Bu məlumatdan görürük ki, vergi və "hədiyyə" olaraq bəzən rüşvətlər məhz ipəklə verilirdi. Keyfiyyətli parça hazırlayan Azərbaycan toxucularının əl işləri Avropada kifayət qədər məşhur idi.

Azərbaycanda yun parça istehsalı da geniş yayılmışdı. Dağlıq ərazilərin və mülayim hava şəraiti ilə əlaqədar daima yaşıllıqların olması heyvandarlığın inkişafına zəmin yaradırdı. Lopuxinin məlumatına əsasən Qubeş (Kubeşi) şəhərində "yerli yunlardan daha yaxşısını heç yerdə tapmazsan. Onların yunu nəfis və yumşaqdır, hazırladıqları parçalar isə heç də pis deyil" [2, 30]. Kubeş şəhərinin Dərbəndin yaxınlığında yerləşməsi müəyyənləşir. Məlumatlarda

Quba şəhəri ayrıca verilir və "Kuba" adlandırılır. Dərbənd ərazisinin dağlıq ərazi olması ilə əlaqədar qoyunçuluğun inkişafı yun və yun parça istehsalına şərait yaratmış olur. Güman etmək olar ki, Rusiya ilə sərhəddə yerləşməsi burada hazırlanan parçaların Rusiyaya, eyni zamanda Avropaya ixrac edilirdi. Sənətkarlar daha keyfiyyətli məhsul hazırlamağa çalışırdılar. Azərbaycanın şimal-şərq bölgələrinin ticarət münasibətlərində Rusiyanın xüsusi çəkisi vardı. Rusiya ilə yaxın məsafədə və Xəzər-Volqa ticarət yolu üzərində yerləşməsi bu bölgənin şimal qonşusu ilə aktiv ticarətini şərtləndirirdi. Lopuxin Şamaxıda olarkən mehmandarın dənizdə gördükləri gəmilər haqqında olan suallarına "gəmilərin taxtadan olması, lakin kimə məxsusluğunu bilmədiyini və güman ki, Həştərxandan gəlməsi" cavabını vermişdir [2, 15]. Zadəganın cavabı o dövrki ticarətin Həştərxan vasitəsilə edilməsini göstərir. Böyük gəmilərin Həştərxandan olması ehtimalı buna əsas verir.

XVIII əsrin siyasi durumunu nəzərə alaraq hər bir evdə özünü müdafiə məqsədilə silah vardı. Lopuxin "kəndlərdə kişilərin hər birinin tüfəngi vardı" deməsi bu dövrdə silaha olan tələbatı göstərir. Azərbaycanın misgərlik sənətinin tarixi qədim dövrlərə gedib çıxsa da, onun fəaliyyət sahələri məişətdə lazım olan əşyaların hazırlanması və soyuq silahın düzəldilməsi ilə məhdudlaşırdı. Azərbaycanda ağır odlu silahlar hazırlansa da, məhdud şəkildə olmuşdur. XVIII əsrdə Lahıc misgərləri Dəməşq poladının hazırlanması sirrini bilir, hətta kiçik toplar hazırlayırdılar. Lopuxin yazır ki, Dərbənd yaxınlığında Qubeş (Kubeşi) şəhərində "əhali hamısı ya sənətkar, ya da tacirdir, heç kimlə mübahisələri yoxdur və heç kimə də qulaq asmırlar. Sənətkarlıqda çoxlu kiçik, yaxşı tüfənglər hazırlayırlar, deyilənlərə görə top da tökürlər" [2, 30]. Topların və silahın hazırlanması üzrə ixtisaslaşmış şəhərin olması böyük maraq kəsb edir. Azərbaycanda bu dövrdə təlabatdan irəli gələrək tüfəng hazırlanması məsələsi yüksək inkişaf etsə də, top hazırlanması yenicə öyrənilirdi. Silahsazlığın inkişafı, odlu silahın istifadəsi barıtın hazırlanmasını tələb edirdi. Lopuxin Dərbənd əhalisinin "barıtı özləri hazırladığını, qurğuşunu Təbriz və Gilandan gətirdiklərini" yazır [2, 30]. Dərbənd yaxınlığında Qubeş şəhərindən məlumat verən Lopuxinin məlumatına əsasən bu şəhərin silah istehsalı üzrə ixtisaslaşdığını müəyyən etmək olar. Silah üçün lazım olan barıt isə Dərbənddə hazırlanırdı. Ağacişləmə kimi sənət sahəsinin inkişafı barədə Lopuxinin gündəliyində hər hansı qeydə rast gəlmirik. A.İ.Lopuxin Niyazabad limanından Dədəli Mənzilinə, oradan Qubayadək hərəkət edərkən meşələrin seyrək olmasını, Xaçmazdan Qubayadək isə xırda kollardan başqa meşənin olmadığını qeyd edir [2, 7]. A.Lopuxinin bu qeydini nəzərə alaraq Azərbaycanın şimal-şərq bölgələrində xammal kasadlığı səbəbilə ağacişləmə sənətinin geniş yayılmadığını deyə bilərik.

Missiyalar sosial zümrələr, onların statusu barədə müxtəlif məlumatlr vermişdilər. Əlbəttə ki, bu hakim təbəqələrin mövqe və nüfuzu birbaşa bəylərbəyidən, sonralar isə xandan asılı idi. Bəylərbəyiliklər dövründə xan sarayında əsas vəzifələrdən birini iş ağası tuturdu. A.Lopuxin Qubada olarkən öz tər-

cüməçisini xan sarayına “təbrik etmək” üçün göndərəndə rus zadəganından olan məktubu iş ağası qəbul etmiş, oxuduqdan sonra gəlişimiz haqqında sorğu-suala başlamışdı [2, 7]. İşağası səfirlərlə danışıqlar aparır, onların yerləşdirilməsi, tələbatlarının ödənməsini təmin edir və xan ilə onlar arasında vasitəçi olurdu. İşağası yerlərdə xarici işlər nazirinin vəzifələrini yerinə yetirirdi. A.P.Volınskinin jurnalında işağası haqqında məlumat vardı. İşağası və digərləri səfirliyi qarşılamağa çıxanda elçiyə bildirdi ki, “onlar qəbul üçün gəliblər və xanın adından elçini təbrik edirlər” [6, 276]. Məlumatdan göründüyü kimi işağası xanın rəsmi nümayəndəsi və onun təmsilçisidir.

Dərbəndin strateji əhəmiyyətini nəzərə alaraq Şirvan hakimləri burada yaxşı silahlanmış və təlim görmüş hərbi hissələr saxlayırdılar. Hərbi hissələrə başçı kimi Dərbənd şəhərinin hakimini – kələntərinin təyin edilməsi onların yüksək nüfuzunun göstəricisidir. Lopuxin “Dərbənd hakimi olan sultan, necə ki, bizdə ober-komendant, öz yanında hazır 1000 nəfər saxlayır, lazım gələrsə, əyalətdən 5000 nəfər hərbi adam yığa bilər” [2, 30]. “Ober-komendant” sözünün açıqlanması alman dilində “ober” yüksək, yuxarı, “komendant” isə fransız dilində qala rəisi, şəhərdə hərbi başçı mənalarını verir. Lopuxin Dərbənd hakiminin vəzifəsini ober-komendant adlandırmaqla Dərbənd sultanını həm də hərbi rəis kimi səciyyələndirmişdi. Dərbəndin sərhəddə yerləşməsi buranın müdafiəsi məsələsini aktual edir. Digər bəylərbəyliklərdə şəhər hakimi kimi kələntər şəhərin inzibati işlərinə baxır, vergilərin yığılması və mərkəzdən gələn sərəncamların yerinə yetirilməsinə nəzarət edirdi.

XVIII əsrin ilk rübündə Azərbaycanda olan A.Lopuxin Şamaxı xanı ilə görüşərkən xan sarayında 500-ə yaxın silahlı şəxsin hər iki tərəfdən düzüldüyünün şahidi olmuşdu [2, 10]. Yerli müdafiə məqsədilə yaradılan hərbi hissələr bəzən bəylərbəyilərin ətraf bölgələrə hücumlarında istifadə olunurdu. Yerli hakimlərin mərkəzi hakimiyyətin razılığı, hətta xəbəri olmadan qonşu ərazilərə hücumları olurdu. 1718-ci ilin 22 martında A.Lopuxin Şamaxı sultanı ilə söhbətindən belə bir məlumat almışdı ki, Məşhəd xanı (meşeçkoy xan) öz ordusu ilə özbəklərə hücum etmiş, özbəklərin hamısını qırmış, silah, at və kiçik mal-qara ələ keçirmişdi [2, 11]. Bu məlumatlara əsasən yerli hakimlərin şaha tabe olmalı qoşun hissələrindən şəxsi əmr və istəklərini yerinə yetirmək üçün istifadə etdiklərini görürük. Öz istəklərini yerinə yetirmək üçün bəylərbəyilər əyalətdəki açar vəzifələrə öz yaxın adamlarını təyin edirdilər.

Səfəvi qoşun hissələrində vəzifə ierarxiyası mövcud idi. Onbaşı, yüzbaşı və minbaşılar mərkəzdəki qorçubaşıya tabe olurdular. A.Lopuxin Quba şəhərinə çatarkən burada yüzbaşının evi onlara mənzil olaraq təqdim edilmişdir. A.Lopuxin onun adının Ruslan bəy və onun xanın yaxını olması məlumatını verir [2, 8]. Yerli hakimlər-xanlar ordunu özünə tabe etmək üçün idarə etdikləri ərazilərdə birbaşa şaha tabe olmalı hərbi hissələrə öz yaxın adamlarını təyin edirdilər. Yüzbaşılar qaydalara uyğun olaraq artıq mərkəzdəki qorçubaşıya deyil, xana tabe olur və onun əmrlərini yerinə yetirirdilər.

A.İ.Lopuxin Qubada olmuş və burada Qubanın düşməndən qorunması üçün “heç bir müdafiə istehkamı olmadığını” qeyd etmişdir [2, 7]. Lopuxin eyni zamanda xan iqamətgahının Xudatda yerləşdiyini və xanlığın ərazisində Qubadan başqa bir şəhər olmadığını qeyd edir. Tarixi mənbələr və arxeoloji qazıntılar bunun əksini sübut edir. Quba xanlığının əsasını qoyan Hüseynəli xan Quba şəhərini xanlığın mərkəzinə çevirdi və onun ətrafına qala divarları çəkdirdi. Quba xanlığı ərazisində düşməndən sığınmaq üçün möhkəm qalalar olmuşdur. Xudat bu qalalardan biri hesab edilir. Sultan Əhməd xan 1718-ci ildə öldürüldükdən sonra onun kiçik yaşlı oğlu bu qalada gizlədilmişdi. “Rusların nəzarəti altında olan Xudata gətirilərək Rusiyanın himayəsinə keçməklə xanlığı bərpa etmək istəmişlər” [7, 10]. Əhali ləzgilərin yürüşlərindən narahat olan xanlığın yuxarı zümrələri müdafiə məqsədilə daha möhkəm hesab edilərək qalaya sığına bilərdilər. Qarətçi yürüşləri A.Lopuxin təsdiqləyir. “Ləzgi və kuralların qarətindən müdafiə üçün Üst Çəlis (Ust Çelisı) adlı çiy kərpicdən tikilmiş qala”nı təsvir edir. “Buranın bir ağaclığında Davut qalası adlı şəhərin olduğunu, ağacdan halqa və xəndəklə əhatələndiyini” yazır. “Buranın bir girişi vardı. Gecələr darvaza bərk bağlanır”. Müdafiə qalalarının olması və qalanın müdafiə imkanını artırmaq müəyyən tədbirlərin həyata keçirilməsi bu bölgənin daim hücum hədəfi olması mərkəz şəhərin müdafiəsi və qurğuların daha möhkəm olmasını tələb edirdi.

Azərbaycanda istifadə olunan dil məsələsinə gəldikdə təzadlı bir vəziyyət alınır. Səfəvilər dövləti yaranarkən ilk dəfə Şərqdə türk dili dövlət səviyyəsində istifadə edilməyə başladı. Bunu nəinki yerli mənbələr, o cümlədən xarici səfir və səyyahların gündəliklərindəki məlumatlar da sübut edir. Lakin getdikcə fars ünsürlərin Səfəvi sarayında aparıcı mövqe tutması, onların açar vəzifələrə oturması fars dilinin də saraya yolunu açdı. Azərbaycan türkcəsi ilə bərabər fars dilindən də istifadə olunmağa başlandı. Bu ikili dil vəziyyəti Belin qeydlərində izlənilir: “buradakı əhali türkcə, məmurlar isə farsca danışırlar”. Məlumatın bu formada verilməsi xüsusi əhəmiyyət kəsb edir. Üstün sayda olan Azərbaycan əhalisinin türk mənşəli və türk dilli olmasını nəzərə alaraq məmurların fars dilində danışması məlumatı çaşğınlıq yaradır. Məmurların rəsmi dairələrdə və əcnəbi tacirlərlə münasibətlərində fars dilindən istifadə etməsini ehtimal etmək olar. Belə ki, zadəgan Lopuxinin Şamaxı sultanı ilə Terekə getmək üçün icazə almaq barədə danışıqları zamanı “mənim fars dili bilənim yoxdur...” deməsi əcnəbilərlə danışıqların fars dilində aparılmasını bir daha təsdiq edir [2, 14]. Lopuxinin digər səfir və səyyahlar kimi coğrafi mövqe baxımından Səfəviləri Persia adlandırması və bundan irəli gələrək Səfəvilərin dilinə persidski deməsi də güman edilə bilər.

Beləliklə, A.İ.Lopuxinin qeydləri əsasında XVIII əsrin I rübündə Azərbaycanın siyasi, iqtisadi və sosial məsələləri təhlil olundu. Digər ilk mənbələrlə müqayisə olunaraq bu nəticəyə gəlmək olar ki, Azərbaycan iqtisadiyyatında müəyyən gerilik hiss olunsa da, ümumi inkişaf vardı. A.İ.Lopuxinin jurnalının

tədqiqi bir sıra məsələlərə aydınlıq gətirir. Eyni zamanda təzadlı fikirlərdən də xali deyil ki, bunların hamısı məqalədə işıqlandırılmağa cəhd edilib.

## ƏDƏBİYYAT


1. Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII веке. Баку: АН Азерб.ССР, 1948, 190 с.
2. История, география и этнография XVI-XIX вв. Архивные материалы. М.: Восточная литература, 1958, 367 с.
3. www.vostlit.info/Texts/Dokumenty/Kavkaz/XVIII/1700-1720/Lopuchin_A_I/text1.htm
4. Azərbaycan tarixi. Bakı: BDU, 2014, 380 s.
5. Azərbaycan tarixi. 7 clddə. III c. (XIII-XVIII əsrlər). Bakı: Elm, 2007, 592 s.
6. Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı: Çıraq, 2007, 416 s.
7. Mustafazadə T.T. Quba xanlığı. Bakı: Elm, 2005, 480 s.
8. Путешественники об Азербайджане. Т.1. Составил З.И.Янпольский, Баку: Наука, 1961, 450 с.


## ИСТОРИЯ АЗЕРБАЙДЖАНА В ПЕРВОЙ ЧЕТВЕРТИ XVIII ВЕКА В ПРИМЕЧАНИЯХ ДВОРЯНИНА А.И.ЛОПУХИНА


**З.Р.ИСЛАМОВА**


### РЕЗЮМЕ


Андриан Иванович Лопухин (1693-1755) дворянин, близкий родственник первой жены Петра I, Евдокии Лопухиной, лейтенант лейб-гвардии, участвовал в посольстве 1715-1718 гг. в Персию А.П.Волынского. В 1718 г. был послан А.П.Волынским сухим путем от Низовой до Россий для доставки подарков шаха Петру I – слона и лощадей. Согласно секретной инструкции, данному ему, он должен был составить дневник, в которой он должен был написать все увиденное и услышанное. Данная статья содержит историю Азербайджана по тем примечаниям, который был сделан Лопухиным.



**Ключевые слова:** Сефевиды, Дербент, Лопухин, миссия, сельское хозяйство


## NOBLE A.I.LOPUKHIN’S NOTES ABOUT AZERBAIJAN’S HISTORY IN THE I QUARTER OF THE XVIII CENTURY


**Z.R.ISLAMOVA**


### SUMMARY


The article provides notes about Azerbaijan’s history in the I quarter of XVIII century. Noble A.I.Lopukhin was a lieutenant of the Russian Army. A.I.Lopukhin took part in the official Embassy of Russia in the beginning of the XVIII century. He attended the mission of A.P.Volinski to the Safavid Empire in 1715-1718. When he was in Shamakhi he carried the presents of the Shah to the Russian Tsar. Although it was an official task, he got secret orders too. In accordance with the instructions, Lopukhin had to keep a diary of what he saw on the way, the incidents he witnessed, the people he met. The article illuminates the political, economic and social problems of the XVIII century based on A.Lopukhin’s notes.



**Key words:** Safavid, Darband, Lopukhin, legation, agriculture